

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 73 (23.960)

21 aprel 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprelin 20-də rəsmi qarşılanma mərasimi olub. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə təkbətək, sonra isə geniş tərkibdə görüşü keçirilib. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə"ni, "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum"u imzalayıblar. Hər iki ölkənin təmsilçiləri tərəfindən müxtəlif sahələr üzrə əməkdaşlıq haqqında Anlaşma memorandumları, Sazişlər də imzalanıb.

Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanın adından Qırğız Respublikasının Prezidenti Sadır Japarov və xanımı Ayqul Japarovanın şərəfinə rəsmi ziyafət verilib.

# 2022-ci ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər "Sənaye ili" elan edilmiş 2022-ci ilin ilk rübündə də davam etdirilmişdir.

Cari ilin ilk rübündə inkişafı xarakterizə edən əsas göstərici kimi ümumi daxili məhsul istehsalı 570 milyon 384 min 400 manat olmuşdur ki, bu da bir il öncəki göstəricidən 1,5 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2 faiz artaraq 1231,4 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,5 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 53,8 faiz təşkil etmişdir.

2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 2022-ci ilin ilk rübündə sənaye məhsulu 1,5 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, kənd təsərrüfatı məhsulu 3,8 faiz, nəqliyyat sektorunda yük daşınması 1,4 faiz, informasiya və rabitə xidmətləri 2,8 faiz artmışdır.

### Makroiqtisadi göstəricilər

| Müqayisə predmeti | 2022-ci ilin yanvar-mart ayları, faktiki | 2022-ci ilin yanvar-mart ayları 2021-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul, min manat | 570 384,4 | 101,5* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 1 231,4 | 102,0 |
| Sənaye məhsulu, min manat | 263 789,2 | 101,5* |
| Əsas kapitala yönəldilən vəsaitlər, min manat | 193 910,6 | 101,2 |
| Kənd təsərrüfatı məhsulu, min manat | 32 840,5 | 103,8* |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 3 537,5 | 101,4 |
| İnformasiya və rabitə xidmətləri, min manat | 15 113,5 | 102,8 |
| o cümlədən mobil rabitə, min manat | 11 055,0 | 101,5 |
| Pərakəndə əmtəə dövriyyəsi, min manat | 317 170,7 | 101,2* |
| Əhaliyə göstərilən ödənişli xidmətlər, min manat | 45 323,8 | 101,0* |
| Bir işçiyə hesablanmış orta-aylıq əməkhaqqı, manat | 559,6** | 104,4 |

*) müqayisəli qiymətlər üzrə

**) yanvar-fevral ayları göstəricisi

### Sənaye

Muxtar respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, dinamik inkişaf qorunub saxlanılmışdır.

2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada 263 milyon 789 min 200 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki göstəricini 1,5 faiz üstələmişdir.

Sənaye məhsulu istehsalının 92,8 faizi malların, 7,2 faizi isə xidmətlərin payına düşmüşdür. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 90,8 faiz təşkil etmişdir.

### Sənaye məhsulu istehsalının dinamikası, min manat




2022-ci ilin ilk rübündə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 33 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 51 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilmişdir.

Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2022-ci ilin yanvar-mart aylarında 6 milyon 122 min manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 30,3 faiz çoxdur.

### Hərbi quruculuq

Muxtar respublikada ordu quruculuğu istiqamətində tədbirlər davam etdirilir.

2022-ci ilin yanvar-mart aylarında Naxçıvan şəhərində hərbi zavodun, körpünün və üç anbarın tikintisi, əsgər yataqxanasının əsaslı təmiri davam etdirilmişdir.

Şahbuz rayonunda yaşayış binasının, Babək rayonunda bir avtomobil saxlancının və iki yeraltı saxlancın, Şərur rayonunda bir avtomobil saxlancının tikintisi davam etdirilir.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında əsgər yataqxanasının əsaslı təmiri başa çatdırılmış, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının şəhərciyində yataqxana binasının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəhərciyində idman zalının və Nehrəm Təlim Mərkəzinin yenidən qurulması davam etdirilir.

Şərur rayonunda 5-ci Sərhəd Zastavası üçün infrastruktur obyektlərinin tikintisi, 1-ci Sərhəd Komendantlığı binasının yenidən qurulması davam etdirilir.

### Tikinti-quruculuq və su təchizatı tədbirləri

Ümumi inkişafın təmin edilməsində vəsait qoyuluşları mühüm rol oynayır. 2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada 57 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 175 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir.

### Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat




Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2022-ci ilin ilk rübündə 3 kənd mərkəzinin tikintisi davam etdirilmiş, 4 kənd mərkəzinin tikintisinə, 1 kənd mərkəzinin yenidən qurulmasına başlanılmışdır. Bundan əlavə, Şərur şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasının yenidən qurulması davam etdirilir.

Muxtar respublikada 1 yaşayış binasının tikintisi, 7 yaşayış binasının yenidən qurulması davam etdirilir. Bundan əlavə, "Gənclər Yaşayış Kompleksi"nin tikintisi davam etdirilmişdir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmiş, 2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 95 min 334 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da bir il öncəki göstəricidən çoxdur.

Babək, Kəngərli və Sədərək rayon mərkəzlərində, ətraf qəsəbə və kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin, Culfa rayonunun Yaycı, Kəngərli rayonunun Qarabağlar, Xok, Yurdçu və Qabıllı, Sədərək rayonunun Dəmirçi kəndlərində içməli su şəbəkələrinin tikintisi davam etdirilir.

Babək rayonunun Sirab kəndində və Uzunoba Su Anbarı yaxınlığında içməli su xətlərinin çəkilişi davam etdirilmiş, Kəngərli rayonunun Qabıllı kəndi ərazisində subartezian quyusunun tikintisinə başlanılmışdır.

### Kənd təsərrüfatı və yaşıllaşdırma tədbirləri

Muxtar respublikada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm yer tutan kənd təsərrüfatının inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir.

Muxtar respublikada meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası diqqətdə saxlanılmış, cari ilin ilk rübündə 1 istixana təsərrüfatının yaradılması, 4 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 2 soyuducu anbarın yaradılması davam etdirilmişdir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2022-ci ilin yanvar-mart aylarında 69 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2022-ci ilin ilk rübündə 31 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 3 ədədi nağd yolla satılmışdır. Bu dövrdə məhsul istehsalçıları 7836,3 ton mineral gübrə ilə təmin olunmuşdur.

Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı 2022-ci ilin ilk rübündə də diqqətdə saxlanılmış, 24 heyvandarlıq təsərrüfatının yaradılması, 4 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 8 heyvandarlıq təsərrüfatının yaradılması, 1 heyvandarlıq kompleksinin yenidən qurulması və 2 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Ümumilikdə, bank və

Ardı 2-ci səhifədə

kredit təşkilatları tərəfindən bu sahəyə 2022-ci ilin yanvar-mart aylarında 3 milyon 726 min 100 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 8,4 faiz çoxdur.

2022-ci ilin yanvar-mart aylarında heyvandarlıq təsərrüfatlarında 2304 baş inək, düyə və camış süni yolla mayalandırılmış, bu dövrdə 2987 baş sağlam bala alınmışdır.

Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 4 oktyabr tarixli Fərmanının icrası bu sahənin inkişafına yeni imkanlar yaradır.

1 aprel 2022-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 127 min 269 baş, qoyun və keçilərin sayı 801 min 228 baş olmuşdur ki, bu da 1 aprel 2021-ci il tarixə olan göstəriciləri 1,6 və 2,2 faiz üstələmişdir.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə 1 quşçuluq təsərrüfatının yaradılması başa çatdırılmış, 1 quşçuluq təsərrüfatının yenidən qurulması davam etdirilir.

2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 6926 ton ət, 13443,7 ton süd istehsal olunmuşdur ki, bu da 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,2 və 1,3 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası diqqətdə saxlanılmış, 2022-ci ilin yanvar-mart aylarında 1 damazlıq ana arı yetişdirmə təsərrüfatının və 1 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Təsərrüfat subyektlərinə 2022-ci ilin ilk rübündə 20 min 500 manat kredit verilmişdir. Arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə subsidiyaların verilməsi bu sahəyə marağı daha da artırmışdır.

Muxtar respublikada əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası üzrə müvafiq tədbirlər həyata keçirilmiş, 2022-ci ilin ilk rübündə Kəngərli Rayon Baytarlıq İdarəsinin binasının tikintisi başa çatdırılmış, Culfa Rayon Baytarlıq İdarəsinin binasının tikintisinə başlanılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının dayanıqlı inkişafının təmin olunması, istehsal olunan məhsulların ixrac potensialının artırılması və kənd təsərrüfatı istehsalına əsaslanan emal müəssisələrinin qurulması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı" təsdiq edilmişdir.

2022-ci ilin ilk rübündə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 4 milyon 487 min 500 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 8 faiz çoxdur.

Muxtar respublikada aqrar sahədə elektron xidmətlərin tətbiqi və elektron informasiya sisteminin yaradılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2022-ci il 27 yanvar tarixdə "Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı elektron informasiya sistemi" haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalanmışdır.

Muxtar respublikada dövlət və səfərbərlik ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə strateji əhəmiyyətli mallarla təchizatı təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2022-ci il 16 fevral tarixdə Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalanmışdır.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2022-ci ilin yanvar-mart aylarında bir il öncəyə nisbətən 3,8 faiz çox, yəni 32 milyon 840 min 500 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

*Kənd təsərrüfatının ümumi məhsulu, min manat*




Bu dövr ərzində meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi diqqətdə saxlanılmış, Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində nasos stansiyasının və boru xətlərinin, Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinin ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılmışdır.

Meşə fondunun mühafizə olunması, bərpası, yeni yaşıllıqların salınması istiqamətində tədbirlər görülmüş, 2022-ci ilin ilk rübündə 50,9 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 38,5 min ağac və gül kolu əkilmişdir.

Muxtar respublikada hidrometeorologiya və meşə təsərrüfatı sahələrində maddi-texniki bazanın gücləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Hidrometeorologiya, Meşələrin İnkişafı və Meşə Təsərrüfatı idarələrinin inzibati binasının tikintisinə başlanılmışdır.

## *Nəqliyyat, informasiya – rabitə və energetika*

Artan əhali tələbatına uyğun olaraq muxtar respublikada müasir nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

2022-ci ilin yanvar-mart aylarında Naxçıvan şəhərində iki avtomobil yolunun, Xanlıqlar-Aşağı Daşarx-Yuxarı Daşarx, Həmzəli-Axura, Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi, Maxta-Dəmirçi, Babək rayonunda Cəhri qəsəbəsi-Aşağı Buzqov, Sirab, Ordubad rayonunda Vənənd-Pəzməri, Azadkənd kənd avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir.

Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının və Şərur şəhərində avtovağzal binasının tikintisi davam etdirilir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında nəzarət-ölçü cihazları sexinin əsaslı təmiri, Şərur rayonunda Elektrik Təmas Şəbəkəsi binasının, Dövriyyə Deposu binasının və təmir sexinin yenidən qurulması davam etdirilir.

Culfa rayonunda İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının və Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması davam etdirilir.

2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada nəqliyyat sektorunda 3 milyon 537 min 500 ton yük, 22 milyon 905 min 900 sərnişin daşınmışdır. 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,4 faiz, sərnişin daşınması 2,9 faiz artmışdır.

2022-ci ilin ilk rübündə muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafı diqqətdə saxlanılmış, Duzdağ Radio-Televiziya Ötürücü Stansiyası binasının yenidən qurulması davam etdirilmişdir.

2022-ci ilin yanvar-mart aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin dəyəri 2021-ci ilin müvafiq dövründəki göstəricini 2,8 faiz üstələyərək 15 milyon 113 min 500 manat olmuşdur.

Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində Ordubad rayonunda Ordubad və Tivi Su Elektrik stansiyalarının və Şərur rayonunda Günəş Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Enerji sistemini daha da müasirləşdirmək məqsədilə Culfa rayonunda 132/110/35/10 kilovoltluq elektrik yarımstansiyasının tikintisi davam etdirilmiş, Ordubad rayonunun Xanağa kəndində 35/10 kilovoltluq yarımstansiyanın tikintisinə başlanılmışdır.

Muxtar respublikada 7,6 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik xətləri çəkilmiş, 3 transformator yarımstansiyası quraşdırılmışdır.

1 aprel 2022-ci il tarixə muxtar respublikada 89 min 839 əhali abonenti təbii qazla təmin olunmuşdur.

Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz, Şərur və Babək şəhərlərində isə smartkarttipli elektrik sayğaclarının quraşdırılması davam etdirilir.

## *Sahibkarlıq fəaliyyəti və məşğulluq məsələləri*

Muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir.

2022-ci ilin ilk rübündə muxtar respublikada sahibkarlara 14 milyon 915 min 600 manat kredit verilmişdir. Verilmiş kreditin 8 milyon 686 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 6 milyon 229 min 600 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bu dövrdə 2 hüquqi və 658 fiziki şəxs qeydiyyata alınmışdır.

Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bu məhsulların 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Muxtar respublikada əhalinin məşğulluğunun artırılması və rifahının daha da yüksəldilməsi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığının aparılması və özünüməşğulluq imkanlarının genişləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

2022-ci ilin yanvar-fevral aylarında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 559,6 manat təşkil etmişdir ki, bu da 2021-ci ilin müvafiq dövründəki göstəricidən 4,4 faiz çoxdur.

Cari ilin ilk rübündə muxtar respublikada 35 yeni iş yeri yaradılmışdır. Əmək bazarının tələblərinə uyğun olaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər, traktorçu-maşinist, bərbər-manikürçü və aşpaz peşələri üzrə, ümumilikdə, 69, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Cəzaçəkmə Müəssisəsində isə 12 məhkum heykəltəraş peşə kurslarını bitirmiş, müxtəlif peşələr üzrə 58 müdavim isə peşə kurslarını davam etdirmişdir.

Bərbər, elektrik montyoru, traktorçu-maşinist, kabel xətlərinin quraşdırılması və təmiri üzrə rabitə montyoru, qaz avadanlıqlarının təmiri və istismarı üzrə qazpaylayıcı stansiyanın operatoru və dərzi peşələri üzrə ixtisasartırma kurslarına, ümumilikdə, 99 nəfər cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə ixtisas təhsili müəssisələrində 951 nəfər müxtəlif peşələrə yiyələnmişdir.

## *İstehlak bazarı*

Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəltmiş, əmtəə dövriyyəsinin həcmini genişləndirmişdir.

2022-ci ilin ilk rübündə muxtar respublikanın istehlak bazarında əhaliyə 362 milyon 494 min 500 manat dəyərində istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir. Satılmış istehlak mallarının 96,9 faizi pərakəndə ticarət dövriyyəsinin payına düşmüşdür.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Ordubad rayonunun Dizə kəndində ticarət mərkəzinin tikintisi başa çatdırılmışdır.

Ordubad rayonunun Kələki, Unus və Pəzməri kəndlərində xidmət mərkəzlərinin, Anaqut kəndində istirahət mərkəzinin, Culfa rayonunun Ləkətağ kəndində və Culfa şəhərində xidmət sahələrinin tikintisi davam etdirilmiş, Şərur rayonunun Vərməziyar və Ordubad rayonunun Azadkənd kəndlərində xidmət mərkəzlərinin tikintisinə başlanılmışdır.

## *Bank işi və sığorta fəaliyyəti*

Bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasında və makroiqtisadi sabitliyin qorunmasında bank sistemi mühüm rol oynayır.

1 aprel 2022-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 196087-yə çatmışdır ki, bunun da 191501-i və ya 97,7 faizi aktiv hesablardır. Cari ilin ilk rübündə açılmış 14009 bank hesabının 14002-si aktiv hesablar olmuşdur.

1 aprel 2022-ci il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1548-ə çatdırılmışdır. Cari ilin yanvar-mart aylarında aparılmış nağdsız ödənişlər 38 milyon 924 min 721 manat təşkil etmişdir ki, bu da bir il öncəki göstəricidən 37,3 faiz çoxdur.

2022-ci ilin ilk rübündə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 69 milyon 947 min 400 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 44,6 faiz çoxdur. Verilmiş kreditlərin 5 milyon 712 min 900 manatı və yaxud 8,2 faizi qısamüddətli, 64 milyon 234 min 500 manatı və yaxud 91,8 faizi uzunmüddətli kreditlər olmuşdur.

Muxtar respublikada əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon filialının inzibati binasının tikintisi davam etdirilir.

Cari ilin ilk rübündə muxtar respublikada sığorta növləri üzrə daxilolmalar 1 milyon 396 min manat olmuşdur ki, bunun da 335 min 800 manatını könüllü, 1 milyon 60 min 200 manatını isə icbari sığorta təşkil etmişdir. Bir il öncəyə nisbətən könüllü sığorta ödənişləri 2,5 faiz artmışdır.

## *Təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və turizm*

Təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri çərçivəsində Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması, rektorluq binasının yenidən qurulması davam etdirilir.

Naxçıvan şəhərində Kimya-Biologiya Təmayüllü Liseyin, Babək rayonunun Sirab, Ordubad rayonunun Pəzməri kəndlərində məktəb binalarının tikintisi davam etdirilmiş, Babək rayonunun Nehrəm qəsəbəsində 3 nömrəli məktəb binasının və Ordubad rayonunda Azadkənddə məktəb binasının tikintisinə, Şərur rayonunun Alışar, Vərməziyar, Həmzəli, Babək rayonunun Vayxır, Ordubad rayonunun Xanağa və Kələki kəndlərində məktəb binalarının yenidən qurulmasına başlanılmışdır.

Mütərəqqi təhsil metodu kimi əhəmiyyəti nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 7 iyun tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılmış, Naxçıvan şəhərində mərkəz üçün binanın tikintisi davam etdirilir.

Naxçıvan şəhərində uşaq bağçası binasının tikintisi davam etdirilmiş, Babək şəhərində məktəbdənkənar təhsil müəssisələri üçün binanın tikintisinə başlanılmışdır.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində Babək rayonunun Vayxır kəndində həkim ambulatoriyası binasının tikintisinə, Şərur rayonunun Axura kəndində həkim ambulatoriyası binasının yenidən qurulmasına başlanılmışdır.

Səhiyyə sahəsində həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı" təsdiq olunmuşdur.

Muxtar respublikada əhaliyə göstərilən tibbi sığorta xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin inzibati binasının tikintisi davam etdirilir.

Sosial layihələr çərçivəsində 2022-ci ilin ilk rübündə yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 481 cərrahi əməliyyat aparılmışdır.

*Ardı 3-cü səhifədə*

Hesabat dövrünün sonuna muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan 388 ailəyə ünvanlı dövlət sosial yardımı ödənilmiş, 10 şəhid ailəsinə və qaziyə mənzillər, 10 Vətən müharibəsi iştirakçısına isə avtomobillər təqdim olunmuşdur.

Muxtar respublikada sosial qayğıya ehtiyacı olan 90 ailənin özünüməşğulluğu təmin edilmişdir. Bundan əlavə, monitorinqlər aparılaraq təsərrüfatlarını nümunəvi inkişaf etdirən 2 ailəyə arpa-buğdaqıran, 1 ailəyə otdoğrayan aqreqatları verilmişdir.

Hesabat dövrünün sonuna 255 tənha ahıl və əlil vətəndaşlara evlərində sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində 55 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 49 nəfərin müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud şəxslər 342 texniki və köməkçi reabilitasiya vasitələri ilə təmin olunmuş, 64 nəfərə protez-ortopediya xidmətləri göstərilmişdir.

Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbində davamlılığın təmin edilməsi, bu sahədə təlim-tədris proseslərinin daha da müasirləşdirilməsi və sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Muxtar respublikada əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərmiş, əhalinin sayı bir il öncəyə nisbətdə artaraq 1 mart 2022-ci il tarixə 463 min nəfərdən çox olmuşdur.

Muxtar respublikada pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılmışdır. Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2022-ci ilin ilk rübündə pensiya və müavinətlərin ödənilməsinə 50 milyon 354 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,8 faiz çoxdur.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Bu istiqamətdə cari ilin ilk rübündə Naxçıvan şəhərində Uşaq Kitabxanasının və Kəngərli rayonunda Tarix-Diyarşünaslıq Muzeyinin tikintisi davam etdirilmiş, Naxçıvan şəhərində "Zəfər" parkının tikintisinə başlanılmışdır.

Şərur Rayon Mədəniyyət Sarayının tikintisi, Mərkəzi Kitabxana və Uşaq Kitabxanası binasının yenidən qurulması davam etdirilir.

Naxçıvan şəhərində məscidin tikintisi, Ordubad Cümə məscidinin yenidən qurulması davam etdirilir.

Muxtar respublikada turizmin inkişafı istiqamətində tədbirlər davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası həyata keçirilən tədbirlərin davamlılığını təmin etmiş, 2022-ci ilin ilk rübündə Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisi davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 19 fevral tarixli Sərəncamı ilə yaradılmış Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzinin tikintisi davam etdirilmiş və "DOST" Mərkəzinin tikintisinə başlanılmışdır.

***Hüquq-mühafizə orqanları ilə iş***

Muxtar respublikada hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Babək Rayon Şöbəsinin inzibati binalarının yenidən qurulması başa çatdırılmış, Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsinin və Naxçıvan şəhərində dəmir yolu nəqliyyatında polis şöbəsinin inzibati binasının tikintisi davam etdirilir.

Aparılan təhlillər deməyə əsas verir ki, bu gün bütün sahələrdə əldə olunmuş uğurlar və həyata keçirilən mühüm tədbirlər muxtar respublikanın davamlı və dinamik inkişafına, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına yeni imkanlar yaradır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsi***

## Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin hesabat iclası olub



*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin 2022-ci ilin I rübü ərzindəki fəaliyyətinə həsr olunmuş iclası keçirilib.*

İclası giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı sədrinin müavini – aparatın rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov bildirib ki, muxtar respublikanın ictimai-siyasi həyatında mühüm hadisə olan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransında təşkilatın Gənclər Birliyinin yeni tərkibinin təsdiq edilməsi də gündəliyə çıxarılaraq qəbul olunub və birlik qarşısında bir sıra tapşırıqlar qoyulub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin sədri Arzu Qasımov Gənclər Birliyinin I rüb ərzindəki fəaliyyətinə dair arayışı slaydlar vasitəsilə təqdim edib. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransında qəbul olunmuş yeni əsasnaməyə əsasən təşkilatın Gənclər Birliyi yenidən formalaşdırılıb. Konfransda muxtar respublika rəhbərinin qarşıya qoyduğu tapşırıqlar əsas götürülərək birliyin aid dövlət orqanları ilə qarşılıqlı fəaliyyəti də nəzərə alınmaqla iş planı təsdiq olunub.

Diqqətə çatdırılıb ki, birliyin yeni iş planına əsasən başlıca istiqamət ulu öndər Heydər Əliyev ideyalarının təbliği, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransında Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq sağlam, intellektual potensiallı, vətənpərvər, hərtərəfli dünyagörüşə malik olan gəncliyin yetişdirilməsidir. Bu məqsədlə Şərur, Babək, Ordubad və Şahbuz rayonlarında Yeni Azərbaycan Partiyasının gənc fəalları ilə görüşlər keçirilib, onlara partiyanın fəaliyyəti üçün görəcəkləri işlərdə istiqamət verilib.

Qeyd edilib ki, fevral ayında Gənclər Günü münasibətilə muxtar respublikanın şəhər və rayonlarındakı 80-ə yaxın fəal partiya üzvü arasında futzal üzrə muxtar respublika birinciliyi keçirilib. 2 fevral tarixdə Gənclər Birliyi, Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Duzdağ" hotelin tədbirlər zalında muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən yeniyetmə və gənclərin mükafatlandırılması mərasimi olub.

Gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi, onların bilik və bacarıqlarının inkişafı məqsədilə Ağbulaq İstirahət Mərkəzində "Gənclərin qış məktəbi" təşkil edilib.

Vurğulanıb ki, qarşıda duran hədəflərdən biri də gənclərin liderlik bacarığının ortaya çıxarılması, gələcək üçün hazırlıqlı kadrların yetişdirilməsidir. Bu məqsədlə 22-24 fevral tarixlərdə "Qış liderlik məktəbi" layihəsi həyata keçirilib, panel müzakirələr aparılıb, bir sıra təlimlər təşkil olunub.

Vurğulanıb ki, Gənclər Birliyi tərəfindən fevralın 12-də "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ilk könüllü dəstəsinin formalaşdırılması məqsədilə Könüllülük Proqramı elan edilib. Proqramın müsahibə mərhələsinə çağırılan 150 könüllüdən 30-u seçilərək birliyin könüllülük dəstəsi formalaşdırılıb.

Qazanılan uğurlar barədə də danışan Arzu Qasımov qeyd edib ki, birliyin üzvü Əziz Qasımov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq 2022-ci il gənclər üçün Prezident mükafatına layiq görülüb. Birliyin üzvü, beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev şahmat üzrə ikinci "Naxçıvan Premium Turniri"ndə 2-ci yerin sahibi olub. Bundan əlavə, Gənclər Gününə həsr olunmuş tədbirdə birliyin üzvləri Elvin Əliyev muxtar respublikanın ictimai-siyasi həyatında xüsusi fərqləndiyinə, Dilarə Baxşəliyeva isə səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə diplomlarla mükafatlandırılıblar. Gənclər Birliyinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin üzvü Aidə Cəlilzadə 22-24 mart tarixlərdə konqresin 42-ci sessiyasında iştirak etmək üçün Fransanın Strasburq şəhərində işgüzar səfərdə olub.

Sonra birlik üzvlərinin fikirləri dinlənilib, ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünün qeyd edilməsi məqsədilə keçirilməsi nəzərdə tutulan "Heydər Əliyev Dekadası"nın qrafiki müəyyənləşdirilib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən martın 1-dən aprelin 18-dək təşkil olunan STEAM və robotexnika təhsili üzrə təlimləri uğurla başa vuran müəllimlərə sertifikatlar verilib.*

## STEAM və robotexnika təlimlərini uğurla başa vuran müəllimlərə sertifikatlar verilib



Elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ tədrisi metodikası və robotexnika üzrə keçirilən təlimlərdə STEAM layihəsi tətbiq olunan ümumtəhsil məktəblərinin 55 müəllimi iştirak edib.

Təlimlərin yekununa həsr olunmuş tədbirdə təhsil naziri Rəhman Məmmədov bildirib ki, hərtərəfli dövlət qayğısı nəticəsində Təhsil Nazirliyi tərəfindən uğurla tətbiq edilən STEAM layihəsinin məqsədi müasir təhsil çağırışları əsasında inkişaf etmiş ölkələrdə tətbiq edilən təhsil yeniliklərinin muxtar respublikamızda tətbiqi imkanlarının öyrənilməsi və öyrədilməsindən ibarətdir.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 7 iyun tarixdə "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində "STEAM Təlim-Tədris Mərkəzi" yaradılır, məktəblərdə STEAM kabinələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Sərəncamın icrası ilə bağlı 106 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, "STEAM təhsil festivalı"nın keçirilməsi ilə bağlı hazırlıq aparılır.

Rəhman Məmmədov diqqətə çatdırıb ki, keçirilən təlimlərin əsas məqsədi STEAM dərslərini tədris edəcək müəllimləri müvafiq istiqamətdə peşəkar inkişafa sövq etmək, onların innovativ texnologiyalardan istifadə qabiliyyətinin yüksəldilməsindən ibarətdir. Təlimlər çərçivəsində müəllimlərə layihə əsaslı öyrənmə, innovativ təlim metodikaları və digər bu kimi istiqamətlərdə praktik biliklər verilir.

Həmçinin müəllimlər STEAM dərslərində tətbiq olunan müasir avadanlıqlardan istifadə edərək müxtəlif tapşırıqları yerinə yetirir, yeni cihazların iş prinsipi və müxtəlif layihələrdə tətbiqi üsullarını öyrənirlər.

Heydər Əliyev adına tam orta məktəbdə yaradılan STEAM Tədris Mərkəzinin imkanlarından yararlanaraq bu günədək 220-si bu mərkəzdə, 150-si isə onlayn qaydada olmaqla, 369 müəllim təlimlərdən yararlanıb, onlarda STEAM dərsləri tədris etmək bacarığı formalaşıb. Təhsil naziri təlimləri uğurla başa vuran müəllimləri təbrik edib, belə təlimlərin bundan sonra da davam etdirilməsi ilə bağlı tapşırıqlar verib.

Sonda STEAM təhsil metodu üzrə təşkil olunan təlimi uğurla başa vuran müəllimlərə Təhsil Nazirliyinin STEAM dərslərini aparmağa icazə hüququ verən sertifikatlar təqdim edilib.

Eyni zamanda Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "SAF 2021" festivalında iştirak etmiş və Azərbaycan üzrə 3-cü yerin qalibi olmuş müəllim və şagirdlərə sertifikatlar verilib.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## Konfrans keçirilib

Naxçıvan Dövlət Universitetində 2021-2022-ci tədris ilində Tələbə Elmi Cəmiyyətinin xətti ilə aparılmış elmi-tədqiqat işlərinin başlanğıc konfransı keçirilib. Əvvəlcə universitetin Elm və innovasiyalar bölməsinin baş elmi işçisi Türkan Quliyevanın fərdi rəsm sərgisinə baxış olub. Universitetin rektoru Elbrus İsayev konfransı açıq elan edərək Tələbə Elmi Cəmiyyəti üzvlərinin fəallığını, tələbələrin elmi işlərə həvəslə cəlb olunmasını yüksək qiymətləndirib.

"Təhsil alanların elmi-tədqiqat fəaliyyətlərinin planlanması" mövzusunda universitetin Elm və innovasiyalar bölməsinin müdiri, təhsilin idarə olunması, təftişi, planlanması və iqtisadiyyatı üzrə fəlsəfə doktoru Rza Məmmədov çıxış edib.

Tələbə Elmi Cəmiyyətinin sədri, Beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə II kurs magistrant



Təbrizə Bağırova çıxışı zamanı 2021-2022-ci tədris ilində Tələbə Elmi Cəmiyyəti xətti ilə yerinə yetirilən işlərin vəziyyəti və cəmiyyətin hədəfləri haqqında məlumat verib.

Sonda Rəngkarlıq ixtisası üzrə I kurs tələbəsi Aidə İbrahimovanın, Biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Aydan Məhərrəmlinin Tələbə Elmi Cəmiyyətinin xətti ilə işlədikləri elmi-tədqiqat mövzuları dinlənilib.

Qeyd edək ki, Aydan Məhərrəmlinin elmi məqaləsi Rusiyanın Penza şəhərində dərc olunub.

***Naxçıvan Dövlət Universitetinin***
***Televiziya, mətbuat və***
***ictimaiyyətlə əlaqələr bölməsi***

## Teleradiolarda peşəkarlıq fəaliyyətinə nəzarət edilir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası mart ayında muxtar respublikanın teleradiolarının fəaliyyətini izləmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş Tədbirlər planlarından və Dövlət proqramlarından irəli gələn vəzifələrin icrasını diqqətdə saxlamışdır.

Naxçıvan televiziyasında Ali Məclis Sədrinin iştirak etdiyi tədbirlərə həsr olunmuş 5 telematerial hazırlanmışdır. Muxtar respublikamızda mart ayı Novruz bayramı ilə əlaqədar keçirilən tədbirlərlə yaddaqalan olmuşdur.

2022-ci ilin ölkəmizdə "Şuşa ili", Naxçıvan Muxtar Respublikasında isə "Sənaye ili" elan edilməsi Naxçıvan radiosunun əməkdaşlarının diqqət mərkəzində saxlanılmış, bu sahədə müxtəlif verilişlər hazırlanaraq efirə təqdim edilmişdir.

"Kanal 35" televiziyası fəaliyyətini təhsil profilli verilişlərin yayımı üzrə davam etdirmiş, televiziyada məktəblilərin bilik və bacarığının artırılması məqsədilə ay ərzində 74 "Dərs vaxtı", 4 "Rənglərin dünyası", 46 "Təkrar edək" adlı qısametrajlı çarx hazırlanaraq efirə yayımlanmışdır. "Naxçıvanın səsi" radiosu ötən ay 488 saat efirdə olmuş və efir müddətinin 151 saatını canlı yayım proqramları təşkil etmişdir.

Universitet televiziyası mart ayında öz yayım fəaliyyətini davam etdirmiş, şuranın verdiyi təklif və tövsiyələr ilə yayım istiqamətini tənzimləmişdir. Universitetin "Nuhçıxan" radiosu televiziyada təqdim edilən veriliş və materialların radio variantını hazırlayaraq efirə yayımlamışdır. Şura radio efirində universitetdə sosial, idman və digər sahələrdə uğur qazanmış tələbələrdən bəhs edən radioverilişlərin hazırlanmasını dinləyici kütləsinin artmasına xidmət edəcəyini proqnozlaşdırmışdır.

Hesabat dövründə şura tərəfindən Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu ilə bağlı mərkəzi mətbuat orqanları üçün 65-i mətbuat xidmətlərinin materialları olmaqla, 131 xəbər, 3 müsahibə, 3 analitik material, 1 fotoreportaj, ümumilikdə, 547 şəkillə verilmiş, 4 videosüjet yayımlanmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Televiziya və Radio Şurası***

*Gənc nəslə vətənpərvərlik ruhu aşılamaq, onlar üçün karyera, iş imkanları yaratmaq, könüllülük fəaliyyətinin inkişafına nail olmaq və gənclərin cəmiyyətdəki aktivliyini artırmaq məqsədilə ötən ay bir sıra tədbirlər həyata keçirilib.*

## Gənclərin asudə vaxtı səmərəli təşkil olunur

Gənclər və idman naziri gənclərin problemlərinin həlli, fikir və təkliflərinin dinlənilməsi, eləcə də onların müxtəlif sahələrdə təşəbbüskarlığının artmasına nail olmaq üçün Şərur rayon gəncləri ilə diskussiya xarakterli görüş keçirib, Bakı şəhərinin ev sahibi olduğu "Ənənəvi idmanın dirçəldilməsi" adlı 5-ci etnoidman forumunda könüllülərin iştirakı təmin olunub. Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində "Yüksəliş" müsabiqəsinin işçi qrupu ilə görüş təşkil edilib, tədbir zamanı müsabiqə və qeydiyyat prosesi ilə bağlı məlumatlar diqqətə çatdırılıb, iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılıb. Gənclərin bank və sığorta sahəsində müəyyən bilik və bacarıqlara yiyələnməsi, maliyyə savadlılığının formalaşdırılması, onlar üçün karyera və iş imkanlarının yaradılması məqsədinə xidmət edən "Həvəskar maliyyəçilər marafonu" və "Maliyyə məktəbi" layihələri çərçivəsində təlimlər reallaşıb. Gənclər üçün vətənpərvərlik mövzusunda film nümayişi təşkil olunub, bir qrup könüllü gəncin iştirakı ilə Kəngərli rayonunda yaşayan şəhid ailələri ziyarət edilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərən döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən hazırlanan "Qəhrəmanlar unudulmur!" adlı videoçarxların sosial şəbəkələrdə yayımı davam etdirilib.



Təcrübəli mütəxəssislərin muxtar respublikaya dəvəti diqqətdə saxlanılıb. Azərbaycan Cüdo Federasiyasının hakimləri tərəfindən keçirilən seminarda cüdoda tətbiq edilən yeni qaydalar və dəyişikliklər barədə məlumat verilib, müvafiq vəziyyətlər tatamidə praktik şəkildə izah olunub və növbəti gün reallaşan yeniyetmə cüdoçuların muxtar respublika birinciliyi yeni qaydalar əsasında keçirilib. Federasiyanın vitse-prezidenti, olimpiya çempionu Elnur Məmmədli hər iki tədbirdə cüdoçulara dəstəyini nümayiş etdirib. Bu yarış da daxil olmaqla Milli Olimpiya Komitəsinin yaranmasının 30 illiyi və 5 mart – Bədən Tərbiyəsi və İdman Günü ilə bağlı təsdiq olunan tədbirlər planına əsasən yeniyetmələr arasında boks və atletika idman növləri üzrə muxtar respublika birincilikləri, şahmat üzrə komanda birinciliyi, sağlamlıq imkanları məhdud uşaqlar arasında stolüstü tennis birinciliyi, uşaq, yeniyetmə və gənclər arasında karate üzrə Naxçıvan şəhər açıq birinciliyi və basketbol üzrə yoldaşlıq görüşü təşkil olunub. Həmçinin futbol hakimliyi seminarları davam etdirilib, yerli və xarici şahmatçıların iştirakı ilə beynəlxalq reytinq yarışları, yeniyetmə və gənclər arasında sərbəst velosipedi, hüquq-mühafizə orqanlarının əməkdaşları arasında stend atıcılığı üzrə muxtar respublika birincilikləri, hərbi qulluqçular arasında sərbəst güləş, yunan-Roma güləşi və cüdo yarışları reallaşıb. Bundan başqa, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə ali və orta ixtisas təhsili müəssisələrinin qızlardan ibarət voleybol komandaları arasında birincilik, könüllülər arasında peyntbol yarışı və qızlardan ibarət basketbol komandaları arasında yoldaşlıq görüşü keçirilib.

Ötən ay usta cüdoçuların Azərbaycan çempionatında Naxçıvan Güləş Federasiyasının idmançıları Məcid Rzayev gümüş, Sarvan Məhərrəmov bürünc, yeniyetmə boksçuların Azərbaycan birinciliyində isə Naxçıvan Boks Federasiyasından Elbrus Kərimli və Kənan Allahverdiyev bürünc medal əldə ediblər. Naxçıvan Kikboksinq Federasiyasının idmançıları MMA, pankration və qrepplinq üzrə Bakı şəhər açıq birinciliyində uğurla çıxış edərək 5-i qızıl, 2-si gümüş və 3-ü bürünc olmaqla, ümumilikdə, 10 medal qazanıblar. Eyni zamanda ölkədə bədən tərbiyəsi və idmanın inkişafındakı xidmətlərinə və müvafiq idman növlərində tələb normalarını yerinə yetirdiklərinə görə muxtar respublikadan 4 nəfər "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" adına layiq görülüblər.

İdman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar davam etdirilib, Hava və Ekstremal İdman Növləri, Kikboksinq, Paralimpiya və Atıcılıq federasiyalarının təmsilçiləri Cəlil Məmmədquluzadənin ev-muzeyini, Bəhruz Kəngərli muzeyini, Xatirə muzeyini, Hüseyn Cavidin ev-muzeyi və Xatirə kompleksini ziyarət ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Uğur qazanan idmançılarla görüş keçirilib



Göygöl rayonunda yüngül atletikanın kross qaçış növü üzrə ölkə yaz çempionatı keçirilib. Azərbaycanın 24 bölgəsinin 250-dən çox idmançısının iştirak etdiyi çempionatda Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının 4 idmançısı da mübarizə aparıb. İdmançılarımız ölkə birinciliyində uğurlu nəticə əldə edərək muxtar respublikaya 3 medalla qayıdıblar. Belə ki, 2000 metr məsafədə Aysu Abbasova bütün rəqiblərini qabaqlayaraq Azərbaycan çempionu adına layiq görülüb. Digər qız idmançımız Zeynəb Babayeva isə 1000 metr məsafədə finiş xəttini üçüncü yerdə tamamlayıb. 6 kilometr məsafədə Miryusif Seyidov da bürünc medal qazanıb. Əmrah Nağıyev isə 10 kilometr məsafəni 4-cü yerdə başa vurub.

Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində uğur qazanan idmançılar və onların məşqçiləri ilə görüş keçirilib. Qazandıqları uğura görə idmançıları təbrik edən təhsil naziri, Atletika Federasiyasının sədri Rəhman Məmmədov bildirib ki, 2019-cu ildən etibarən yüngül atletika, ağır atletika və bədii gimnastika bölmələri birləşərək Atletika Federasiyası yenidən formalaşmağa başlayıb. Geridə qoyduğumuz iki il ərzində məlum pandemiya səbəbindən muxtar respublika, eyni zamanda ölkədaxili yarışlar, turnirlər təxirə salınmışdır. Lakin 2022-ci ildən etibarən idmançılarımız çıxış etdikləri yarışlarda uğurlu nəticələr əldə ediblər. Təbii ki, bunun səbəbi federasiya məşqçilərinin daim idmançılarla işləməsi, onlara nəzarət etməsidir. İlk olaraq cari ilin mart ayında ağır atletika üzrə keçirilən ölkə çempionatında 3 idmançımız böyük nailiyyət əldə edib. Ardınca bu uğuru kross qaçışı üzrə Azərbaycan çempionatında yüngül atletlərimiz təkrarladılar. Azərbaycanın müxtəlif bölgələrinin 250-dən çox idmançısının mübarizə apardığı ölkə çempionatında idmançılarımızın medallar qazanması sevindirici haldır.

Qazanılan uğura görə məşqçi və idmançılara təşəkkürünü bildirən Rəhman Məmmədov yaradılan şəraitə görə federasiya adından muxtar respublika rəhbərinə minnətdarlıq edib.

Sonda federasiya sədri tərəfindən uğur qazanan idmançılara və məşqçilərə diplom, medal və Atletika Federasiyasının təşəkkürnamələri, pul mükafatı təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## *"Vətənin Müdafiəsinə Hazıram!"*
## poliatlon çoxnövçülüyü üzrə muxtar respublika birinciliyi

Çağırışaqədər və çağırışyaşlı məktəblilər arasında keçirilən yarışa rayon (şəhər) mərhələlərinin qalibləri olmaqla, ümumilikdə, 8 komanda qatılıb.



İştirakçılar poliatlon beşnövçülük proqramı üzrə 100 metr məsafəyə qaçış, pnevmatik tüfəngdən atəşaçma, qumbaraatma, turnikdə dartınma və 2000 metr məsafəyə kross qaçışı üzrə mübarizə apardılar. Qalib və mükafatçılar müvafiq yarışlarda toplanan ümumi xalların cəminə əsasən müəyyənləşib.

Hesablamalar nəticəsində Ordubad rayon komandası qalib adına layiq görülüb. Şərur və Şahbuz rayonlarını təmsil edən komandalar yarışı müvafiq ardıcıllıqla ikinci, üçüncü sıralarda tamamlayıblar.

İlk üçlükdəki komandalar və fərdi göstəricilərə görə fərqlənən iştirakçılar diplom, fəxri fərman və kubokla mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilməkdədir.*



Ötən ay ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 47 yoxlama-reyd təşkil edilmişdir. Bu sahədə 3 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür. Muxtar respublika təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Bu məqsədlə Ordubad rayonunun Bist kəndində əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri təşkil olunmuş, ətraf mühitin mühafizəsi, brokonyerlik hallarına qarşı birgə mübarizə, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları və torpaqların münbitliyinin qorunması haqqında müzakirələr aparılmışdır.

Ay ərzində Babək, Şahbuz, Kəngərli, Sədərək, Culfa, Ordubad və Şərur rayonlarının 25-dən çox yaşayış məntəqəsi ərazisində ekoloji monitorinqlər davam etdirilmişdir. Monitorinqlər zamanı su mühiti, məişət, tibbi və bərk tullantıların idarə olunması kimi fəaliyyət sahələrində qiymətləndirmə işləri həyata keçirilmişdir. Monitorinqlər nəticəsində bir sıra nöqsanlar qeydə alınmış, onların aradan qaldırılması üçün icrası məcburi olan tapşırıqlar verilmişdir.

Sədərək Rayon Su Monitorinq Laboratoriyasında mart ayı ərzində Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülərək analiz aparılmışdır. Nəticədə, sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

25 fevral 2022-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə də bir sıra tapşırıqlar verilmişdir. Həmin tapşırıqların icrası məqsədilə təsdiq edilmiş sxem-plana uyğun olaraq ərazilərdə torpaq hazırlığı işləri aparılmış, müvafiq tədbirlər görülmüşdür. Yeni meyvə bağlarının salınması məqsədilə, ümumilikdə, 13,5 hektar sahədə texnika vasitəsilə torpaq hazırlığı işləri aparılmış, çalalar qazılmışdır. Sxem-plan əsasında kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaq sahələrində, çay vadilərində və mövcud meşələrdə əkin-bərpa işləri aparılmışdır. Ümumilikdə, 20,5 hektar sahədə əkin-bərpa aparılmış, 10350 müxtəlif meyvə tingləri və üzüm kolu, 550 qızılgül, 450 həmişəyaşıl kollar əkilmişdir.

Hesabat ayında fauna ehtiyatlarının daşduza olan tələbatının ödənilməsi məqsədilə, ümumilikdə, ərazilərə 1500 kiloqram daşduz dağıdılmış, ictimaiyyətlə ətraf mühitə təsir hallarının aradan qaldırılmasına dair ekoloji-hüquqi maarifləndirici söhbətlər aparılmış, yoxlama-reydlər keçirilmişdir.

Ötən ay Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir. İdarənin əməkdaşları AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə Gülüstan sahəsindən oxra və qaja (gəc) nümunələri götürərək geologiya muzeyinə qoymuş, iş prosesini öyrənmək üçün Türkiyə Respublikası şirkəti tərəfindən Darıdağ hidrotermal su mənbəyində debitin artırılması üçün quyunun qazılması işlərini müşahidə etmişlər.

Gənclərlə işin təşkili məqsədilə ekologiya könüllülərinin iştirakı ilə Ordubad Dövlət Təbiət Yasaqlığının Nehrəm dağı ərazisində biotexniki tədbir keçirilmişdir. Tədbirdə gənclərə xüsusi mühafizə olunan təbiət əraziləri, onların əhəmiyyəti və bu ərazilərdə məskunlaşmış fauna növləri haqqında geniş məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır. İştirakçılar bu ərazilərdə məskunlaşmış bezoar dağ keçilərini və muflonları xüsusi binokl vasitəsilə müşahidə etmişlər. Tədbir zamanı əraziyə 500 kiloqramdan çox daşduz dağıdılmışdır. Bu kimi tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

## Məktəblilərin profilaktik tibbi müayinələri aparılır

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın tələblərinə uyğun olaraq şagirdlərin dərin tibbi müayinə və tuberkulin test sınaqları, flüoroqrafik müayinələri davam edir.*



Şahbuz Rayon Mərkəzi Xəstəxanası tərəfindən məktəblərdə kütləvi dövri tibbi müayinələr aparılıb. Müayinələri xəstəxananın pediatr və digər ixtisaslı həkim briqadası həyata keçirir. Aprel ayının ilk iki həftəsi ərzində 609 şagird dərin tibbi müayinələrə cəlb olunub. Xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirlərinin təşkili olunması nəzərdə tutulub.

Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən Babək şəhərindəki 1 nömrəli tam orta məktəbdə 29 şagird flüoroqrafiya müayinəsindən keçirilib. Xəstəlik halları aşkar edilməyib. Müayinələrin nəticələri müsbət və şübhəli olan uşaqların daha dərin müayinələrə cəlb edilməsinə lazımi köməklik göstəriləcəkdir. Məktəblərdə uşaq və yeniyetmələrin şəxsi və ümumi gigiyenik qaydaları haqqında maarifləndirici söhbətlər də aparılır.

Sədərək Rayon Mərkəzi Xəstəxanası tərəfindən də məktəblərdə kütləvi dövri tibbi müayinələr davam etdirilir. Müayinələri xəstəxananın pediatr, stomatoloq, oftalmoloq və digər ixtisaslı həkim briqadası həyata keçirir. Aprel ayının ötən yarısı ərzində Heydərabad qəsəbəsində, Sədərək, Qarağac və Dəmirçi kəndlərində 1312 şagird dərin tibbi müayinələrə cəlb olunub.

Yaz mövsümünün profilaktik tibbi müayinələri aprel ayının sonunadək davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şahbuz rayonu, Nursu kəndində yaşayan Məmmədli Mehdi Müslüm oğlunun adına verilmiş 23 noyabr 2015-ci il tarixli, MH 0045432 nömrəli Dövlət reyestrindən çıxarış və 4 noyabr 2015-ci il tarixli A 012480 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ *qapısı*
**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000,*
*Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 340